*AMEA Müqayisəli ədəbiyyatşünaslıq, 2023, № 1* *ISSN 2663-4414*
*Səhifə: 110-114* *E-ISSN 2709-0762*
*https://doi.org/10.59849/2663-4414.2023.1.110*

# DOSTOYEVSKİNİN "KARAMAZOV QARDAŞLARI" ƏSƏRİNDƏ FREYDİZMİN İLKİN ELEMENTLƏRİNİN TƏZAHÜRÜ

**Səbinə Dünyamalıyeva**
AMEA Naxçıvan Bölməsi. Azərbaycan.
E-mail: eliyevalparslan@gmail.com

**Xülasə.** Rus ədəbiyyatının görkəmli nümayəndəsi Dostoyevskinin hekayələri, povestləri, romanları orijinallığı və psixoloji dərinliyi ilə seçilir. Bu cəhətdən yazıçının son romanı olan "Karamazov qardaşları" daha çox diqqəti çəkir. Dörd hissədən, on iki fəsil və epiloqdan ibarət olan əsərdə obrazların davranışında freydizm nəzəriyyəsinin ilkin elementləri ilə qarşılaşırıq. Bu nəzəriyyəyə görə, insanlarda həm irsən mövcud olan bəzi hisslər – uşaqlıq dövrlərində aldıqları travmalar, "libido"lar, həm də fizioloji olaraq yaranan bəzi ehtiyaclar cəmiyyət tərəfindən qəbul edilmədikdə şəxslər bəzən öz şəxsi iradələri – ağıl tərəfindən, bəzən də cəmiyyət tərəfindən qınaq obyektinə çevriləcəkləri üçün bu hissləri, düşüncələri məcburən gizlətməli olurlar. Cəmiyyətin basqısı ilə gizlədilmiş hisslər insanların şüuraltında qalır və müəyyən situasiyalarda ortaya çıxır. Bəzi davranışlar müəyyən zaman və şərait mühitində gerçəkləşir. Amma Freyddən əvvəl Dostoyevskinin əsərlərində təhtəlşüur proseslər obrazlarda özünü göstərirdi. Freyd isə elmi nəzəriyyə kimi şüuraltı proseslərin əlamətlərini işləyib elm aləminə təqdim etmişdir.
**Açar sözlər:** Dostoyevski, freydizm, "O", "Mən", "Karamazov qardaşları"

**Məqalə tarixçəsi:** göndərilib – 27.06.2023; qəbul edilib – 05.07.2023

# IN DOSTOYEVSKY'S "BROTHERS KARAMAZOV" WORK THE MANIFESTATION OF THE FIRST ELEMENTS OF FREUDISM

**Sabina Dunyamaliyeva**
Nakhchivan Branch of ANAS. Azerbaijan.
E-mail: eliyevalparslan@gmail.com

**Abstract.** The stories, narratives and novels of Dostoyevsky, the genius of Russian literature, draw attention with their originality and psychological depth. In this respect, the author's last novel, "The Brothers Karamazov", is particularly striking. In the work, which consists of four parts, twelve chapters and an epilogue, we encounter the initial elements of Freudian theory in the behavior of the characters. According to this theory, if some inherited feelings, childhood traumas, "libidos", thoughts, as well as some physiological needs are not accepted by society, people will sometimes become objects of condemnation by their own personal will-mind, and sometimes by society and they have to hide these feelings and thoughts. Feelings hidden by the pressure of society remain in people's subconscious and emerge in certain situations. Some behaviors are realized in certain time and environment. But before Freud, in the works of Dostoyevsky, subconscious processes were manifested in the images. Freud worked out the signs of subconscious processes as a scientific theory and presented them to the world of science.
**Keywords:** Dostoevsky, Freudianism, "He", "I", "The Brothers Karamazov"

**Article history:** received − 27.06.2023; accepted − 05.07.2023

## Giriş / *Introduction*

XIX əsr rus ədəbiyyatının tənqidi realizm ədəbi cərəyanının nümayəndəsi Fyodor Mixayloviç Dostoyevski 1821-ci ildə, noyabrın 11-də Moskvada anadan olmuşdur. Yazıçının uşaqlığı qardaşı və bacısı ilə birlikdə sərxoş atasının – Mixail Andreyeviçin və xəstə anasının – Mariya Fyodorovnanın yanında keçmişdir. Yazıçının anası 1837-ci ildə vəfat etdikdən sonra – 1838-ci ildə qardaşlar Peterburq Hərbi Mühəndislik məktəbinə qəbul olundular. Tələbəlik illərində Dostoyevski boş vaxtlarında çoxlu ədəbiyyatlar oxuyurdu. 1843-cü ildə bu məktəbi bitirən Dostoyevski bir il orduda işləyəndən sonra istefa verir və yazıçı kimi fəaliyyətə başlayır. Yazıçının ilk romanı olan "Yoxsul insanlar" 1846-cı ildə çapdan çıxır. O, daha sonra "Alçaldılmış və təhqir olunmuşlar" (1861), "Ölü evdən qeydlər" (1862), "Gizlindən Qeydlər" (1864), "Cinayət və cəza" (1866), "Qumarbaz" (1866), "İdiot" (1868), "Əbədi ər" (1870), "Cinlər" (1872), "Yeniyetmə" (1875), "Yazıçının gündəliyi" (1876) və "Karamazov qardaşları" (1880) adlı əsərlərini yazır.

## Əsas hissə / *Main Part*

Dostoyevskinin hekayələri, povestləri, romanları orijinallığı və psixoloji dərinliyi ilə seçilir. Bu cəhətdən yazıçının son romanı olan "Karamazov qardaşları" daha çox diqqəti çəkir. Dörd hissədən, on iki fəsil və epiloqdan ibarət olan əsərdə obrazların davranışında freydizm nəzəriyyəsinin ilkin elementləri ilə qarşılaşırıq. Bu nəzəriyyəyə görə, insanlarda həm irsən mövcud olan bəzi hisslər, uşaqlıq dövrlərində aldıqları travmalar, "libido"lar, düşüncələr, həm də fizioloji olaraq yaranan bəzi ehtiyaclar cəmiyyət tərəfindən qəbul edilmədikdə, həmin şəxslər bəzən öz şəxsi iradələri – ağıl tərəfindən, bəzən də cəmiyyət tərəfindən qınaq obyektinə çevriləcəkləri üçün bu hissləri, düşüncələri məcburən gizlətməli olurlar. Cəmiyyətin basqısı ilə gizlədilmiş hisslər insanların şüuraltında qalır və müəyyən situasiyalarda ortaya çıxır. Bəzi davranışlar müəyyən zaman və şərait mühitində gerçəkləşir.

Ziqmund Freydin freydizm nəzəriyyəsinin mərkəzində "psixi olanın təhtəlşüuri konsepsiyası dayanır" (Rzayev, 2015, s. 242). Təhtəlşüur şüuraltı psixi proseslər deməkdir. Ziqmund Freyd təhtəlşüuru 3 hissəyə bölür:

1. "O", yaxud "JD"n – həzz, zövq, "libido*", həvəslərin məkanı, qeyri-şüuri davranışlar;
2. "Fövqəl-Mən", yaxud "Super eqo" – vicdan, cəmiyyət qaydaları, kütlə psixologiyası , "əxlaqi ustanovkalarının mənbəyi" (Rzayev, 2015, s. 243);
3. "Mən", yaxud "Eqo" – özünüqoruma, reallıq, məntiq. Bu hissə "O" və "Mən" arasında tarazlığı qoruyur.

Freydizm təliminə görə, bu üç hissə hər bir insanın şüuraltında mövcuddur. Ancaq bu təlimə görə, "Mən" və "Super eqo"nun fəaliyyəti, yəni əxlaq qaydaları, tabular, ictimai qınaq "O"nun bir hissəsi olan "libido"nu sıxışdırır ki, nəticədə fərdin psixikası Edip kompleksinə yönəlir. Bunu da qeyd etmək lazımdır ki, bəzi mənbələrdə freydizm nəzəriyyəsinin sırf fizioloji akt olduğu göstərilsə də, bu belə deyil. Çünki Freyd özünün "Yaşamım və psixoanaliz" əsərində XVIII əsrdə yaşamış Breuerlə onun təhtəlşüur proseslərin yalnız fizioloji olması haqqında mülahizələri ilə razılaşmadığını bildirərək, Breuerin məsələyə yalnız fizioloji yanaşmasını qınayırdı.

Nəzərə çatdırmaq istərdim ki, Freyd insan fiziologiyası və psixologiyasını dərindən araşdırsa da, insana yalnız fərd kimi yanaşır və onun iradəsini, ağlının gücünü nəzərə almırdı. O, insan davranışlarının istinad nöqtəsini yalnız instinklərlə, qeyri-şüuri davranışlarla əlaqələndirirdi.

Freyddən əvvəl Dostoyevskinin əsərlərində təhtəlşüur proseslərin təzahürü obrazların davranışında özünü göstərirdi. Freyd isə elmi nəzəriyyə kimi şüuraltı proseslərin əlamətlərini işləyib, sistemləşdirmiş və elmi nəzəriyyəsini yaratmışdır. Freydin "Dostoyevski və ata qatili" məqaləsində "Kara-

* Libido-lat. Libido-həvəs, arzu, cəhdetmə

mazov qardaşları" romanında Edip kompleksinin izləri göstərilmişdir. Apardığımız araşdırmada biz Dostoyevskinin "Karamazov qardaşları" romanındakı bəzi obrazlarda sıxışdırılmış duyğularının səbəb olduğu davranışları psixoanaliz nöqteyi-nəzərindən analiz etmişik.

"Karamazov qardaşları" əsərində hadisələr Fyodor Karamazov və onun oğulları Dmitri və ya Mitya Karamazov, İvan Karamozov, Aleksey, yaxud Alyoşa, Smerdyakov ətrafinda cərəyan edir. Dmitri Fyodurun birinci evliliyindən olan övladıdır. İvan Karamozov və Alyoşa ikinci evliliyindən, Smerdyakov isə qanunsuz şəkildə doğulan övladıdır. Fyodor Karamazov övladlarının heç birinə qaygı göstərməmişdir. Onun böyük oğlunu köməkçisi Qriqori, İvan və Alyoşanı isə uşaqların ana tərəfindən qohumları böyütmüşdür. Fyodor ancaq içki içir, eyş-işrətlə məşğul olurmuş.

Dostoyevski romanın əvvəlində qardaşların yaşadıqları həyat tərzinin onların psixologiyasına, dünyagörüşünə təsirindən bəhs etmişdir. Dmitrini atasının köməkçisi böyütdüyünə görə, bu yaşayış tərzi onun atasına bənzəməsinə, yüngül xarakterli birinə çevrilməsinə səbəb olur. Amma Fyodorun digər oğlu İvan xüsusi məktəblərdə təhsil alır və o, bir çox həyati məsələlərə fəlsəfi nəzəriyyələr yönündən yanaşır. Ancaq bunu da qeyd etmək istərdik ki, bu fəlsəfələr Hüseyn Cavidin dili ilə desək,

*"Hər fəlsəfə bir vəlvələ, həp tatlı xəyalat,*
*Yoq rəhbəri-vicdan..."* (Cavid, 2005, s. 9)

– yəni vicdana əsaslanmayan fəlsəfədir.

Əsərdə təlxək kimi təqdim edilən ata – Fyodor Karamazov tamamilə mühitin təsirinə düşmüş, təhtəlşüurundakı "O"nun qulu kimi təsvir edilmişdir. İdealsız, "Yatdın və oyanmadın" (Dostoyevski, 2019, s. 194) fəlsəfəsi ilə murdar həyat yaşayan Fyodor Karamazov Miusov ilə dialoqunda deyir: "Həmişə yersiz sözlər danışıram! Zati-aliləri! Sizin qarşınızda bir təlxək dayanıb, həqiqi bir təlxək! Belə də bilin. Təəssüf ki, köhnə adətimdir! Yersiz olan isə arabir gopa basmağımdır, bunu hətta qəsdən edirəm, adamları güldürmək və xoşa gəlmək üçün. Axı xoşa da gəlmək lazımdır, elə deyil?" (Dostoyevski, 2019, s. 194)

İstinad etdiyimiz dialoqdan aydın olur ki, bu obraz özü ilə mübarizəni çoxdan bitirmiş, qeyri-şüuri davranışların – nəfsin əsiri olmuşdur. Sanki bu obrazda "Super eqo" və "Mən" təhtəlşüur proseslər yatmışdır və Fyodor insani ruhun mövcud olmadığı bir bədəndə yaşayır. Freydin "O" kimi təqdim etdiyi təltəlşüur proseslər bu obrazın bütün "mən"inə hakim olmuşdur. Bu obrazı oğlu Alyoşa ən yaxşı təsvir edir. Fyodor Karamazov deyir: "Mən çox pis adamam". Alyoşa isə belə cavab verir: "Siz pis adam deyilsiz, korlanmış adamsınız" (Dostoyevski, 2019, s. 195). "Fyodor Pavloviç Karamazov, Dmitri, İvan və Smerdyakov üçün xarakterik olan sosial mənəvi tənəzzül, ifrat dərəcədə məsuliyyətsizlik ədəbiyyatda "Karamazovizm" adını almışdır" (Mumoğlu, 2017).

Çoxşaxəli olan bu roman qəhrəmanları haqqında bir məqalədə hərtərəfli məlumat vermək, onların psixologiyasında freydizmin izlərini göstərib izah etmək qeyri-mümkündür. Buna görə də obyekt olaraq Mitya obrazı üzərində dayandıq. Ziddiyyətli, dəyişimlərə açıq olan Mitya əsərin əvvəllində qeyri-şüuri davranışlara aludə olan qüsurlu bir şəxs kimi təqdim olunmuşdur. Ancaq Dostoyevski "insan ruhunun dərinliklərinə enə bilən" yazıçı kimi, bu qeyri-şüuri davranışların səbəblərini aydınlığı ilə romanda göstərirdi. Mityanın uşaqlığı, ata və anası olmasına baxmayaraq, yalnızlıq, ümidsizlik içərisində, atasının evinin həyətində balaca bir daxmada, Fyodor Karamazovun köməkçisinin yanında keçib. Müntəzəm olaraq atasının evində içki, eyş-işrət məclisləri qurulub. Belə qarışıq uşaqlıq dövründə Mityanın psixologiyasında güvən, inam, ümid kimi duyğular sıxışdırılmışdır. Buna görə də Mitya insanlarla kobud, nəfs düşkünü bir şəxsiyyəti kimi, "dominant O" kimi davranır. Mitya atasına nifrət bəsləyir, pul üstündə davamlı münaqişə edir, ona çatmalı olan sərvət üçün mübarizə aparırdı. Hərbi məktəbdə oxuyarkən atası arabir ona pul göndərirdi və bu pulları elə sənədləşdirirdi ki, sanki sərvətdən ona çatacaq pulun artığını ona xərcləyib və artıq oğlunun ona borcu var. Bu davranışlar Dmitridə atasına olan nifrəti bir qədər də artırmışdı.

Mitya həm özü ilə, həm də cəmiyyətlə mübarizə aparırdı. İlk sevdiyi qıza – Katerinaya sevgisində özünü təsdiq etmək üçün təhtəlşüurundakı "O"ya qarşı mübarizə aparırdı. Əvvəlcə general qızı Katerina Mityaya üz vermir, öz üstünlüyünü hiss etdirirdi. Ancaq atası hökümət pullarını mənimsə-

məkdə ittiham ediləndən sonra pul üçün Dmitrinin yanına gəlir və onun bütün şərtlərini qəbul etməyə hazır olduğunu bildirmişdi. Amma Dmitri alicənablıqla pulu çıxarıb verir və şüuraltındakı “JD”yə qalib gəlir, həmçinin Katerinaya mənəvi cəhətdən heç də aşağı olmadığını sübut etməyə çalışırdı. Ancaq bu qalibiyyət müvəqqəti olur.

Dmitrinin şüuraltında qalan uşaqlıq travmaları, həmçinin bu travmaların səbəb olduğu günahları, səhvləri onu daha çox qeyri-şüuri davranışlara aludə edirdi. O, meyxanada bir kişini – ştaps kapitanını saqqalından tutaraq oğlunun gözü qarşısında təpikləyir, sürüyür, sanki atasına olan nifrətini ətrafdakı insanlardan çıxırdı.

Romanda Mitya Qruşenka adında bir qadına vurulur. Bu qadının gözəlliyi, ona qarşı olan diqqəti Mityada basdırılmış ümid, güvən duyğusunu oyadır. Amma atası Fyodor Karamazov da bu qadını sevirdi. Atası pulu ilə qadını yanında saxlamaq istəyirdi. Mitya qadını tapa bilməyəndə, atasının yanına getdiyini düşünür və atasının evinə gələrək ona xəsarət yetirir. Mityanın bu davranışları qeyri-şüuri olaraq baş verir. Buna görə də, romanda Xoxlakova Alyoşaya Dmitridə “affekt” vəziyyətinin olduğunu bildirir. Affekt – həyəcan, hirs, özündənçıxma vəziyyətidir. “O özündə olur, nə etdiyini bilir, bununla belə, affekt vəziyyətindədir”. Dmitrinin onun evində olarkən də, o vəziyyətdə olduğunu bildirir və deyirdi: “... gəlib qışqırır: pul, pul, üç min verin, sonra isə gedib öldürüb. İstəmirəm deyir, öldürmək istəmirəm, amma qəfil gedib öldürüb” (Dostoyevski, 2019, s. 633). Amma hadisə Xoxlakovanın düşündüyü kimi olmur. Dmitri onu qeyri-şüuri davranışlara yönəldən “O”ya atasının evində olarkən qalib gəlir və cinayəti törətmir. Çünki Dostoyevski bu obrazda insanın öz-özünü aşa bilməsini, mənəvi təmizlənmə keçirə bilməsinin mümkünlüyünü də göstərir. Əsərin sonunda Fyodor Karamazovu qanundankənar oğlu Smerdyakov öldürür. Amma cinayət Dmitrinin üzərində qalır. O, nə qədər günahsız olduğunu sübut etməyə çalışsa da, alınmır. Ortodoks xristianı olan Dostoyevskinin bu qəhrəmanı sonda Allaha tapınır, ruhi təmizlənmə keçirir. Bəzən insanlar içərisindəki iblisə qalib gəlmək üçün ağır, faciəli yollardan keçməli olurlar. “Mityanın bu cür qəlbən, ruhən ayılması üçün o, ağır bir zərbədən sarsılmalıydı, hansısa ağır bir faciə, iztirab onun ruhunu silkələməli idi” (Qocayev, 2012, s. 87). “Mən hər gün döşümə döyərək düzəlməyə söz versəm də, hər gün yeni murdarlıqlar etmişəm. İndi başa düşürəm ki, mənim kimilərinə zərbə lazımdır, taleyin zərbəsi... edamı onu öldürdüyümə görə yox, öldürmək istədiyimə görə qəbul edirəm..” (Dostoyevski, 2019, s. 560). Dmitri bu yollardan keçir və işləmədiyi cinayəti qəbul edir. Çünki cinayəti kimin işlədiyindən asılı olmayaraq, bu cinayətə mane olmayanlar, ola bilməyənlər, qəlbinin dərinliyində insanın ölməsini, öldürülməsini düşünən hər kəs günahkardır.

Mitya surəti ilə Dostoyevski insan fəaliyyətində təhtəlşüurun rolunu göstərməklə yanaşı, insanın özünü aşa biləcəyini, daxilindəki insana qalib gələ biləcəyini də göstərir və yalnız cəmiyyəti, mühiti tənqid etməyin yanlış olduğunu sübut edirdi. Dostoyevski cinayətlərdən, cinayətkarlardan bəhs etdiyi “Mühit” adlanan məqaləsində qeyd edirdi ki, cinayətlərə mühitin təsir etdiyini əsas götürüb cinayətkarların günahının bağışlanması ədalətli qərar deyil. “Məhkəmənin cinayətkara bəraət qazandırması, səbəb kimi mühitə istinad etməsi cinayətkarı hər bir mənəvi məsuliyyətdən azad etmək deməkdir” (Qocayev, “Yazıçının gündəliyi”, 2016). Çünki insan günahını dərk etməsə, vicdanı ilə hesablaşmayacaq və beləliklə, onun şüuraltındakı “O” hər zaman onun iradəsi üzərində hakim olacaq. Yazıçı Mitya və digər obrazların davranışlarında diqqətə çatdırmaq istədiyi şüuraltı prosesləri bütün dərinliyi ilə çatdıra bilmişdir.

## Nəticə / *Conclusion*

Tədqiqatdan gəldiyimiz nəticə odur ki, Freyd psixoanaliz nəzəriyyəsini formalaşdırana qədər onun irəli sürdüyü bir sıra müddəalar artıq bədii yaradıcılıqda, xüsusən də Dostoyevskinin yaradıcılığında öz əksini tapmışdı. Məhz bunu nəzərə alaraq, Freydin öz dövründə, eləcə də ondan sonrakı mərhələlərdə yazıçıların yaradıcılıqlarında rastlaşdığımız psixoanalitik təhlil meyillərini mütləq şəkildə Freydin təsiri kimi izah etmək doğru deyil.

**Ədəbiyyat / *References***

Cavid, H. (2005). *Əsərləri. Beş cilddə, III c.* . Lider nəşriyyatı.
Dostoyevski, F. (2019). *Karamazov qardaşları.* Bakı: Qanun.
Mumoğlu, C. (2017, oktyabr). *M.F. Dostoyevski, "Karamazov qardaşları" - təhlil.* Bu https://yazyarat.com/: https://yazyarat.com/istifadeci/59 mənbədən tapılıb
Qocayev, M. (2012). *Dostoyevski ətrafında düşüncələr.* Bakı: Elm və təhsil.
Qocayev, M. (2016, dekabr 12). *"Yazıçının gündəliyi"*. Bu https://kaspi.az/az: https://kaspi.az/az/yazicinin-gundeliyi mənbədən tapılıb
Rzayev, M. (2015). *Fəlsəfə Tarixi.* Bakı: MBM.

# ПРОЯВЛЕНИЕ РАННИХ ЭЛЕМЕНТОВ ФРЕЙДИЗМА В «БРАТЬЯХ КАРАМАЗОВЫХ» Ф.М.ДОСТОЕВСКОГО

**Сабина Дунямалыева**
Нахчыванский филиал НАНА. Азербайджан.
E-mail: eliyevalparslan@gmail.com

**Резюме.** Рассказы, повести и романы Достоевского, гениального писателя русской литературы, отличаются оригинальностью и психологической глубиной. В этом отношении особенно примечателен последний роман писателя «Братья Карамазовы». В произведении, состоящем из четырех частей, двенадцати глав и эпилога, мы встречаемся с начальными элементами теории Фрейда в поведении персонажей. Согласно этой теории, если какие-то унаследованные чувства, детские травмы, «либидо», какие-то физиологические потребности не принимаются обществом, люди иногда становятся объектами осуждения по собственной воле – разуму, а иногда и со стороны общества. Их чувства и мысли, скрытые под давлением общества, остаются в подсознании людей и проявляются в определенных ситуациях. Некоторые модели поведения реализуются в определенное время и в определенном окружении. Но до Фрейда в произведениях Достоевского подсознательные процессы проявлялись в образах. Фрейд разработал признаки бессознательных процессов как научную теорию и представил их миру науки.
**Ключевые слова:** Достоевский, фрейдизм, «Он», «Я», «Братья Карамазовы»

*AMEA Müqayisəli ədəbiyyatşünaslıq, 2023, № 1* *ISSN 2663-4414*
*Səhifə: 115-120* *E-ISSN 2709-0762*
*https://doi.org/10.59849/2663-4414.2023.1.115*

# УНИВЕРСАЛЬНАЯ ФИЛОСОФИЯ МАХТУМКУЛИ ФРАГИ

**Лейла Омирова**
Аспирантка института языка, литературы и
национальных рукописей имени Махтумкули АНТ
E-mail: omirovaleyla708@gmail.com

**Резюме.** Гениальный поэт Махтумкули три века назад, сумевший создать стихи, содержащие научные идеи, формирующиеся в области современной фундаментальной философии, навсегда сохранит их современность, так как выдвигаемые им идеи посвящены вопросам, которые следует держать в центре внимания каждой эпохи. В рамках безграничной вечности, быть может, в творчестве поэта были сокрыты неведомые науке мысли, и эти вещи будут самым священным долгом грядущего поколения. На чем следует остановиться, так это на причинах, по которым стихи Махтумкули могут свободно и без границ перемещаться в жизненном пространстве.
Стихи, созданные поэтом, через художественное сознание выражают тонкие и простые мысли человеческой психологии. Одной из главных особенностей творчества Махтумкули Фраги является то, что он не забывает о психологии, в основе которой лежит философия человечества. Стихотворение выражает общие психологические характеристики и индивидуальные стороны человечества. Например, если любовь, ненависть, храбрость, гнев, плач, смех и т. д. понятия общие, то думать по-разному, все время плакать или все время грустить, просто ходить и улыбаться и т. д. характерные признаки, которые выбираются от общего к единственному. Кто читает стихи поэта, связанные с перечисленными выше психологическими аспектами, обязательно найдет стихотворение, которое утешит его сердце, будет доверительным и даст дружеский совет. Поэтому, конечно, всегда будут читать и изучать Махтумкули Фраги. Мы искренне гордимся тем, что наш Фраги – мост, соединяющий туркменский народ с народами мира в научном, литературном и духовном плане.
**Ключевые слова:** Махтумкули Фраги, стихи, храбрость, любовь, туркменский народ

**История статьи:** поступила – 04.04.2023; принято – 28.04.2023

# THE SECULAR PHILOSOPHY OF MAGTYMGULY PYRAGY

**Leyla Omirova**
Postgraduate student of the Magtymguly National institute of language,
literature and manuscripts of the Academy of Sciences of Turkmenistan
E-mail: omirovaleyla708@gmail.com

**Abstract.** Three centuries ago, the genius poet Makhtumkuli, who managed to create poems containing scientific ideas emerging in the field of modern fundamental philosophy, will forever preserve their modernity, since the ideas put forward by him are devoted to issues that should be kept in the center of attention of each era. At this time of eternity, perhaps, thoughts unknown to science were hidden in the poet's work, and these things will be the most sacred duty of the coming generation. What we should emphasize is the reasons why Magtymguly's poems can move freely and

without borders in the living space. The poems created by the poet express subtle and subconscious thoughts of human psychology through artistic consciousness.
One of the main features of Magtymguly Pyragy’s work is that he did not forget about psychology, which is based on the philosophy of humanity. The poem expressed the general psychological characteristics and individual aspects of humanity. For example, if the concepts such as love-hate, courage-anger, crying-laughter are general, then thinking differently, always crying or being sad, only smiling are characteristic features that are chosen from the general to the unique. Whoever reads poet’s works related to the psychological aspects listed above will definitely find a poem that will console his heart, be trusting and give friendly advice. Then, of course, Magtymguly Pyragy’s work will be always read and studied. We are sincerely proud that we have a bridge – a thinker and a poet connecting the Turkmen people with the peoples of the world in scientific, literary and spiritual terms.
**Keywords:** Magtymguly Fragi, poems, bravery, love, Turkmen people

**Article history:** received − 04.04.2023; accepted − 28.04.2023

## Введение / *Introduction*

По инициативе общенационального лидера туркменского народа гордым событием стало принятие исторического Решения о праздновании в 2024 году 300-летия со дня рождения великого мыслителя Востока Махтумкули Фраги. Сегодня под руководством нашего глубоко уважаемого Президента Сердара Бердымухамедова началась новая эра изучения литературного наследия Махтумкули Фраги и перевода его на языки мира. Это доказательство того, что начинается новая эра научного изучения творчества мыслителя Махтумкули.

Три века назад гениальный поэт Махтумкули, сумевший создать стихи, содержащие научные идеи, формирующиеся в области современной фундаментальной философии, навсегда сохранит их современность, так как выдвигаемые ими идеи посвящены вопросам, которые следует держать в центре внимания каждой эпохи. В рамках безграничной вечности, быть может, в творчестве поэта были сокрыты неведомые науке мысли, и эти вещи будут самым священным долгом грядущего поколения. На чем следует остановиться, так это на причинах, по которым стихи Махтумкули могут свободно и без границ перемещаться в жизненном пространстве.

## Главная часть / *Main Part*

Стихи, созданные поэтом, через художественное сознание выражают тонкие и простые мысли человеческой психологии. Для того, чтобы уточнить наше мнение о современности поэзии мудрого поэта, необходимо проанализировать идеи нескольких стихотворений:

*Махтумкули, честь этого мира,*
*В клубок собрал и ветру дал я в руки.*
*Мой разум тонет в реке мыслей,*
*Что же делать, выбраться никак?* (Магтымгулы, 1976, стр. 30)
*(Что же делать?);* (подстрочный перевод).

В стихотворении Махтумкули Фраги представлен как литературный мастер необычной литературной школы, способный «содрать кожу с мировой чести» («хамысын») и выразить причины, по которым его герой присоединяется к миру. Уже в двух строчках стихотворения

чувствуется безграничный смысл и вес. Последние две строки стихотворения также передают общие представления о человеческом разговоре с самим собой, мышлении о мире.

В стихотворении «Сады» мудрого поэта поставлены в действие такие основные вопросы, как удостовериться в сложной взаимосвязи жизни и человека, и извлечь из нее нужное:

*Блуждав в неведении по молодости жизни,*
*Невольно вмешался в дела сырые,*
*И став он слабым и старым, осознал всё былое,*
*Теперь он плачет сам по себе терзая душу в горе.* (Магтымгулы, 1976, стр. 35)
(подстрочный перевод).

В этой строфе Махтумкули говорит, что жизнь воспитывает людей на основе ошибок, совершённых человечеством с момента рождения. Кроме этого, говорится о том, что человеку в последние годы жизни сама природа даёт время (старость) сесть и подумать о важности, которую упустил в молодости.

Одним из самых известных в этом отношении является стихотворение поэта-философа «На смерть сына »:

*Коль джейранёнка утеряет лань,-*
*В полночный час и в утреннюю рань*
*Она кричит; сам бог ей "перестань!"*
*Когда б сказал, она молчать не будет.*

*Как смертным смертных избежать сетей?*
*Нет от судьбы защиты у людей.*
*Фраги! Коль зверь тоскует без детей,*
*То человек ужель рыдать не будет?* (Махтумкули, 2014, стр. 376)

Гениальность Махтумкули Фраги чувствуется во всех его стихах, но это стихотворение невозможно читать без тяжести на сердце. Потому что свою боль о потере ребёнка поэт не выражает простыми словами. В этом стихотворении он наблюдает за чувствами животных, которые на расстоянии переживают ту же ситуацию, что и цепь природы. Если когда слабые животные защищают своих детенышей и ищут лекарство, которое не может вынести их утраты, и животное терпит такую потерю, в качестве сравнения, насколько болезненна потеря ребенка то что режет на куски душу здравомыслящего человека. В этом и выражается неповторимый тон поэта. Противопоставление, выстроенное в дистанции от животного к человеку, держит чувства героев в определенном весе, и поэт выражает этот вес, чтобы он смог полностью войти в мир, и поступки своего героя. Это сообщает о художественном мире поэта и многое, что нужно помнить.

Слова поучительных стихов отца нашего Махтумкули иные:

*С храбрыми мужами, в благополучном народе,*
***Танцуют вместе, враги- честь и гордость.*** (Магтымгулы, 1976, стр. 55)
«Смеясь танцуют» (подстрочный перевод).

Подобно тому, как доброму слову всегда есть место в сердце, он описывает противоречивую честь и гордость, танцующих вместе в справедливой жизни и благополучном народе. Кто может так красноречиво и так ясно описать благородно и дружно вместе танцующих на свадьбе –как честь и гордость? Только Махтумкули?!

В стихотворении «На ложе лености» мудрого поэта сказано, что между «приходом и уходом» человечество бродит в неведении, не находя пути к истине:

*Наевшись, нарядясь, опасность забывая,*
*Ты спишь; тебя манит лишь суета земная;*
*А смерти лев-рычит и, когти расправляя,*
*У ложа твоего припал уже давно.* (Фраги, 1945, стр. 37)

В стихе говорится, что богатство не может быть исчерпано, в погоне за тем богатством забывается главный смысл жизни, мир подобен текущей реке, и человек теряется в ней, не выдержав силы течения, которое может утечь в любое время. Он говорит, что бессмысленно жить, беспокоясь о владении ушедшим имуществом, когда неизвестно, сколько дней ты проживешь, где и чем оно закончится, и повезет ли в этот момент быть захороненным с честью. В двух строках описана целая жизнь. Стихотворение знакомит читателя с жизнью. В стихотворении «Велик ли прок» Махтумкули не терпится еще раз объяснить, что такое настоящее богатство в жизни:

*В еде, где нету соли, вкуса нет,*
*Без соли нету ни шурпы, ни слова,*
*Ты не избегнёшь горестей и бед,*
*Когда ты слеп, врага не видишь злого.*

*Есть ноги, чтобы по земле ходить,*
*Есть уши, чтобы слушать и судить,*
*Но чтоб Аллаха возблагодарить,*
*Где, раб, твое молитвенное слово?* (Махтумкули, 2014, стр. 309)

В этих строках стихотворения подчеркивается, что человечество должно ценить неотделимые от него ресурсы, и очень деликатно напоминается, что трудно оценить ценность глаз, рук, ног, ушей, языка для выражения чувств и мыслей, здоровье всегда с нами. Если мы представим себе на минуту, что лишены счастья видеть и слышать мир, который мы всегда видим и слышим, наш мир сжимается, мы благодарны и всей душой держим эту жизнь в сердце. Здесь поэт более глубоко и эффектно выражает эти нежные чувства. Махтумкули Фраги был святым, понимавшим значение добрых дел и слов в своей жизни. В других строфах стихотворения он подчеркивает, что в их исполнении требуется немногое.

Стихотворение поэта «Время ваше пройдёт» также характеризуется аллегорическими строками и описанием истинного присутствия животных в природе, создавая великое произведение, рисующее с помощью коротких слов картину человеческой жизни:

*Ворон всем на свете заявляет,*
*Что не может сокол с ним сравниться.*
*Ящерица Солнце проклинает,*
*Проглотить она дракона тщится.*

*Барсуку не обогнать джейрана.*
*Три лисы не одолеют львёнка.*
*Говорю об этом постоянно,*
*Не понять всё это лишь ребёнку.* (Махтумкули, 2014, стр. 307)

Строка «Не понять всё это лишь ребёнку» увеличивает ценность обоих куплетов. Строки стихотворения говорят о том, чтобы не быть слабым в жизненных перипетиях, не быть напористым, принимать то, что имеешь, и действовать обдуманно. Самое главное, сказано, что разум играет решающую роль в понимании этих вещей. Анализируя несколько строф

Махтумкули Фраги, мы понимаем, что его совершенные и вечные стихи будут современны, пока живет человечество. В стихотворении поэта «Если…»:

*Человека мы вряд ли когда-то поймём*
*Хороший, плохой… Что мы знаем о нём?*
*Мир по воле злодея охвачен огнём,*
*А время зло лишь умножит*. (Махтумкули, 2014, стр. 222)

– строки поднимают большой вопрос, то есть постоянное состояние, присущее человечеству – относительность. Никто не считает себя ниже других, он уважает себя, плохой человек для одного, лучший человек для другого, мнение – абсолютная истина для одной части населения, и чистая ложь для другой группы и т.д. Одной из главных особенностей творчества Махтумкули Фраги является то, что он не забывает о психологии, в основе которой лежит философия человечества. Стихотворение выражает общие психологические характеристики и индивидуальные стороны человечества. Например, если любовь-ненависть, храбрость, гнев, плач, смех и т.д. понятия общие, то думать по-разному, все время плакать или все время грустить, просто ходить и улыбаться и т.д. характерные признаки, которые выбираются от общего к единственному.

### Заключение / *Conclusion*

Кто читает стихи поэта, связанные с перечисленными выше психологическими аспектами, обязательно найдет стихотворение, которое утешит его сердце, будет доверительным и даст дружеский совет. Поэтому, конечно, всегда будут читать и изучать Махтумкули Фраги.

Мы искренне гордимся тем, что наш Фраги – мост, соединяющий туркменский народ с народами мира в научном, литературном и духовном плане.

### Литература / *References*

Магтымгулы. (1976). *Сайланан эсерлер.* Ашгабат: Түркменистан неширяты.

Махтумкули. (2014). *Избранные стихотворения. Перевод с туркменского. Посвящается 290-летию со дня рождения Махтумкули Фраги.* Ашхабат: Ылым.

Фраги, М.-К. (1945). *Избранные стихи.* (П. с. Шенгели, Перев.) Москва: Государственное издательство художественной литературы Огиз гослитиздат.

## MAGTYMGULY PYRAGYNYŇ DÜNÝEWI PELSEPESI

**Leýla Ömirowa**
Türkmenistanyň Ylymlar akademiýasynyň Magtymguly adyndaky
Dil, edebiýat we milli golýazmalar institutynyň aspiranty
E-mail: omirovaleyla708@gmail.com

**Gysgaça mazmun.** Üç asyr mundan öň häzirki zaman fundamental filosofiýanyň çygrynda emele geljek ylmy pikirleri özünde jemleýän şygyrlary döretmegi başaran genial şahyr Magtymgulynyň öňe süren ideýalary her bir döwrüň üns merkezinde saklanmaly meselelere bagyşlanandygy üçin olar hemişe-de döwrebaplygyny saklar. Bu bakylygyň çygrynda belki heniz ylma mälim bolmadyk pikirler-de şahyryň döredijiliginde pynhan bolup durandyr, ol zatlar bolsa, geljek nesliň iň mukaddes borjy bolar. Aýratyn nygtamaly meselämiz bolsa, Magtymgulynyň şygyrlary ýaşaýyş giňişliginde

serhetsiz, erkana hereket edip bilmeginiň sebäpleri bolup durýar. Şahyryň döreden goşgulary umumadamzat psihologiýasynyň inçe, aňasty derejedäki pikirlerini çeper aňyň üsti bilen beýan edýär. Magtymguly Pyragynyň döredijiliginiň esasy aýratynlyklarynyň biri-de, ol adamzat filosofiýasynyň esasyndan itergi alýan psihologiýany birjikde unutmaýar. Şahyr adamzada mahsus bolan umumy psihologik aýratynlyklary we indiwidual taraplary beýan edýär. Mysal üçin söýmek-ýigrenmek, mertlik, namartlyk, aglamak gülmek we ş.m. düşünjeler umumy bolýan bolsa, üýtgeşik pikirlenmek, hemişe gygyrmak, ýa mydama gamgyn bolmak, diňe gülümsiräp ýöremek we ş.m. umumylykdan ýekeleýinlige saýlanýan häsiýetli aýratynlyklardyr. Akyldaryň şygyrlaryny şu ýokarda sanap geçen psihologik taraplara degişli bolan haýsy wekil okaýsyn öz ýüregine teselli berjek, syrdaş boljak, dostlukly maslahat berjek goşgy hökmanam tapar. Onda, elbetde Magtymguly Pyragy hemişe okalaram, öwrenilerem. Türkmen halkyny dünýä halklary bilen ylmy we edebi, ruhy tarapdan birleşdirýän köprümiziň-akyldar şahyrymyzyň bardygyna tüýs ýürekden buýsanýas.

**Esasy sözler:** Magtymguly Fragi, goşgular, mertlik, söýgi, Türkmen halky